# İdman xəbərləri

## Zona birinciliyi keçirilmişdir

*Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin əhatə etdiyi rayonların təhsil müəssisələri arasında mayın 17-də "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının zona birinciliyi keçirilmişdir.*



Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, təhsil, gənclər və idman nazirliklərinin dəstəyi ilə keçirilən birinciliyin əsas məqsədi şagirdlərin fövqəladə hallara hazırlıqla bağlı fiziki və intellektual səviyyəsinin yoxlanılması, məktəblilərdə şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin artırılması və gənc nəslin nümayəndələrinə sağlam həyat tərzinin aşılanmasından ibarət olmuşdur.



Tədbirin açılışında çıxış edənlər yarışların əhəmiyyətindən danışaraq iştirakçılara uğurlar arzulamışlar.

Yarış "Kombinə edilmiş yanğın estafeti", "Gənc ekspertlər müsabiqəsi" və "Komandaların təqdimatı" adlı üç mərhələdən ibarət olmuşdur.

Gərgin mübarizə şəraitində keçən yarışların yekunlarına əsasən, İsmayıllı şəhər 6 nömrəli tam orta məktəbi I yeri, Qax şəhər N. Allahverdiyev adına 2 nömrəli məktəb-liseyi II yeri, Qəbələ rayonunun T. Yaqubov adına Bum qəsəbə tam orta məktəbi isə III yeri tutmuşdur. Yarışda fərqlənmiş komandalar müvafiq yerlər üzrə diplomlarla təltif olunmuşdur.

Birinci yeri tutan komanda "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının respublika mərhələsində iştirak etmək hüququ əldə etmişdir.

**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

## Cüdo üzrə açıq birincilik

Qəbələ Olimpiya İdman Kompleksində cüdo üzrə açıq Qəbələ birinciliyi keçirilib.



Açıq birincilikdə Rusiya, Ukrayna, Qazaxıstan və Azərbaycan respublikalarından 28 komanda iştirak edib. Yarışda 450 nəfər gənc iştirakçı gərgin idman mübarizəsi aparıb.

Qəbələli cüdoçulardan 2003-2004-cü il təvəllüdlü idmançılar arasında 50 kiloqram çəki dərəcəsində Qismət Məmmədov, 2005-2007-ci il təvəllüdlü idmançılar arasında 42 kiloqram çəki dərəcəsində Nicat Abduləzimov, 55 kiloqam çəkidə isə Tamerlan Cabbarov II yerə layiq görülüblər.

Qaliblər Qəbələ İdman Klubunun diplom və medalları ilə təltif ediliblər.

**✍ Rail İSMAYILOV, Qəbələ İdman Klubunun baş məşqçisi.**

## İlk buraxılış

*İbtidai təhsilin keyfiyyətini artırmaq istiqamətində aparılan ən mühüm tədbirlərdən biri də məktəbə hazırlıq qruplarnın təşkil edilməsidir. Bu qruplara 5 yaşı tamam olmuş uşaqlar cəlb olunur.*

*Hazırlıq qruplarının təşkil edilməsi uşaqların ibtidai təhsilə başlayarkən mühitə adaptasiyasını da asanlaşdırır. Yaşlarının kiçik olması səbəbindən*



*müəyyən çətinliklər yaransa da müəllimlər böyük səylə balacaları birinci sinfə hazırlayırlar.*

*Pərviz Osmanov adına şəhər 2 nömrəli tam orta məktəbin hazırlıq qrupunun müəllimi Gülbəniz Rüstəmova da bu işin öhdəsindən layiqincə gəlir. O, deyir ki, 5 yaşlı uşaqlarla işləmək çox çətindir. Bu müəllimdən böyük məsuliyyət və bacarıq tələb edir. 2016-2017-ci dərs ilində onun qrupunda 27 uşaq olub. Uşaqlardan 23-nün 1-ci sinfə tam hazır, 4-nün isə qismən hazır olduğunu bildirir.*

*Məktəbə hazırlıq qrupunun təşkil edilməsi valideynlər tərəfindən də yüksək qiymətləndirilir. Bu dövlətimizin təhsilin inkişafına göstərdiyi qayğının nəticəsidir.*

***✍ Nigar YUSİFOVA, şəhər 2 nömrəli tam orta məktəbin direktor müavini.***

## Qəbələ 2017-ci ilin birinci rübündə

**(Əvvəli ötən nömrəmizdə).**

İlin birinci rübündə keçən ilin həmin dövrünə nisbətən ət istehsalı 21 ton, süd istehsalı 19 ton, yumurta istehsalı isə 2 min ədəd artmışdır.

**Sənaye**

2017-ci ilin birinci rübü ərzində rayonun sənaye sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən 8533 min manatlıq və ya əvvəlki ilin müvafiq dövründən 49.8 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Ümumi məhsul istehsalında və xidmətlərin göstərilməsində qeyri - dövlət bölməsinin xüsusi çəkisi 75 faiz təşkil etmişdir.

Rüb ərzində 3681 min manatlıq qida məhsulları istehsal olunmuş, 2145 min manatlıq sənaye xarakterli xidmətlər göstərilmişdir.

2017-ci ilin birinci rüb ərzində sənaye müəssisələrində çalışan 1555 nəfərin orta aylıq nominal əmək haqqı 282 manat təşkil etmiş, əvvəlki illə müqayisədə 11 faiz azalmışdır.

**Tikinti**

Cari ilin 1aprel vəziyyətinə rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 5219,0 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 4912,0 min manat təşkil etmişdir.

Ümumi sahəsi 1840 kv metr olan 28 fərdi ev tikilib istifadəyə verilmişdir. Rüb ərzində 4945,3 min manatlıq əsas fondlar istifadəyə verilmiş, bunun da 4047,3 min manatı dövlət, 898,0 min manatı isə qeyri dövlət mülkiyyəti təşkil etmişdir.

**Mədəniyyət və turizm**

Rayonda 2017-ci ilin 1 aprel vəziyyətinə 1 mədəniyyət evi, 26 kitabxana, 1 xalq teatrı, 31 klub, 4 mədəniyyət və istirahət parkı, 3 muzey fəaliyyət göstərmişdir. Rayonda 93 tarix-mədəniyyət abidəsi və 1 dövlət qoruğu vardır. Abidələrin 61-i dövlət əhəmiyyətlidir.

Rayon təbiət mənzərələri, tarixi abidələr, mədəniyyət ocaqları və müasir turizm kompleksləri baxımından geniş imkanlara malikdir.

**(Ardı gələn nömrəmizdə).**

## Məktəblilərin ekskursiyası

*Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin 1 «a» sinfinin şagirdləri rayonumuzda fəaliyyət göstərən qida şəhərciyinə, «Beltmann» Piano Fabrikinə və Tufandağ Qış-Yay Turizm İstirahət Kompleksinə ekskursiya etmişlər.*

«Gilan» Qida Şəhərciyindən başlayan ekskursiyadan sonra məktəblilər «Beltmann» Piano Fabrikinə gəlmişlər. Sinfin musiqi müəllimi Aynurə Hacıyevanın «Beltmann» royalında səsləndirdiyi «Ana Vətən» nəğməsi və şagirdlərin xor ifa etməsi körpələrdə olduqca maraqlı və yaddaqalan bir xatirəyə çevrilmişdir.



Məktəblilərin Tufandağ Qış-Yay Turizm İstirahət Kompleksinə gələrək kanat gəzintisi ilə dağların qoynuna səyahət etməsi, yüksəkliklərdən görünən yamyaşıl meşələri, dağ çaylarını, bir sözlə füsunkar təbiəti seyr etmələri onların sonsuz marağına səbəb olmuşdur.




Ekskursiyanın sonunda sinif rəhbəri Bacı Osmanova şagirdlərin səyahət etdikləri müəssisələrin və istirahət mərkəzinin rəhbərliyinə, əməkdaşlarına müəllimlərin və şagirdlərin adından minnətdarlığını bildirmişdir.

**✍ Məlahət NƏSULLAYEVA, məktəbin müəllimi.**